*Azərbaycan Milli Elmlər Akademiyası M. Füzuli adına Əlyazmalar İnstitutu,* *ISSN 2224-9257*
*Filologiya məsələləri № 5, 2026*
*Səh. 427-435*

https://doi.org/10.62837/2026.5.427

**Dosent NÜŞABƏ SADIXLI**
*Bakı Dövlət Universiteti*
*Dünya ədəbiyyatı kafedrası*
***nushaba-sadixli@mail.ru***

# "QANADLARI ZƏDƏLƏNMİŞ" FRENSİS SKOTT FITSCERALD

## XÜLASƏ

Məqalədə ABŞ yazıçısı Frensis Fitsceraldın yaradıcılığı, xüsusi ilə romanları və onun ABŞ ədəbiyyatındakı rolu haqqındadır. Görkəmli Amerika yazıçısı Frensis Skott Fitscerald 1896-cı il sentyabrın 24-də kiçik bir sərvətə malik ailədə dünyaya gəlmişdi.

Böyük pulların yaratdığı imkanlar çox erkən, xüsusilə tələbəlik illərində özünün nisbətən kasıb olduğunu anlayan gənc Fitsceraldı özünə cəlb edir. Fitsceraldın romanlarının üçü iyirminci illərin birinci yarısında qısa bir müddətdə nəşr olunur. 1920-ci ildə "Cənnətin bu tayı", 1922-ci ildə "Gözəlliklər və lənətlənmişlər", 1925-ci il "Möhtəşəm Getsbi", səkkiz ildən sonra "Gecə zərifdir" və bu əsərindən bir qədər sonra "Sonuncu maqnat" əsərinin yalnız yarısını yaza bilir. Fitscerald yaradıcılığı çox ziddiyyətlidir. yaradıcılığının ilk illərində ziddiyyətli meyilləri görünürdü. Mahiyyət etibarı ilə realist həyatın tənqidçisi olsa da bu və ya başqa səbəblərdən, tənqidinin dəyərini azaldır, ictimai problemlərdən uzaqlaşır, kəskin səhnələri ört-basdır edir.

**Açar sözlər:** Frensis Fitscerald, roman, "Möhtəşəm Getsbi", "Cənnətin bu tayı", "Gözəlliklər və lənətlənmişlər", "itirilmiş nəsil", müharibə, təsvirçilik

Görkəmli ABŞ yazarı Frensis Skott Fitscerald 1896-cı il sentyabrın 24-də yazıçı babasından qalmış kiçik bir sərvətə malik ailədə dünyaya gəlib. Bu sərvət Skottun sonralar daha varlı insanların dairəsinə girmədən, onlarla sıx münasibət qurmasına təkan vermişdi. Böyük pulların yaratdığı imkanlar çox erkən, xüsusilə tələbəlik illərində özünün nisbətən kasıb olduğunu anlayan gənc Fitsceraldı özünə cəlb edir. Çox güman ki, Priston universitetinə daxil olduqdan (1913) sonra zənginlik onun gözündə xüsusi cəzbedici qüvvəyə malik olur.

Bioqraf Teribellin təsdiq etdiyinə görə, təsadüfi deyildir ki, universitetdə təhsil aldığı müddətdə onun idealı Nyu-Orleandan olan zəngin və yaraşıqlı gənc Ellis idi. Çox güman ki, pulun zənginləri necə dəyişdirdiyini anlamaq üçün Fitsceraldın cəhdlərini də bu vaxta aid etmək olar. Bu, sonralar onun ən yaxşı əsərlərinin tənqidi xarakterini şərtləndirən bir cəhd idi.

Məktublarını, bioqrafik qeydlərini, qeydlər apardığı kitabçaları nəzərə alsaq Fitsceraldın bütün yaradıcılığı sübut edir ki, Terinbell 1919-cu ildə yazıçının bir araya sığmayan iki şeyə qətiyyətli "O, ciddi şəkildə sənətkar olmaq, çoxlu pul

*Azərbaycan Milli Elmlər Akademiyası M. Füzuli adına Əlyazmalar İnstitutu,* *ISSN 2224-9257*
*Filologiya məsələləri № 5, 2026*
*Səh. 427-435*

qazanmaq istəyirdi...” fikrini təsdiq edir. Bu son cəhdi gözəllər gözəli Zelda Sayr ilə tezliklə evlənmək arzusu ilə bağlı idi. 1920-ci ildə ilk romanı çap olunduqdan sonra Fitscerald sevdiyi qızla ailə həyatı qurur.

Romanın böyük uğur qazanması, müəllifə yalnız yüksək qonorar deyil, həm də böyük şöhrət gətirir. Artıq Fitsceralddan yüksək keyfiyyətli əsərlər gözləyirdilər. Onun şəxsi vərdişləri, Zelda ilə paylaşdığı və Zeldanın da təhqir etdiyi həyat tərzi (bu ömrünün sonuna qədər davam edir) elə hey qazanc naminə yüksək qonorar ödəyən redaksiyalara oxunaqlı, lakin bədii cəhətdən zəif yazılar təqdim etməklə yaradıcılıq prinsiplərini qurban verir.

Müharibə mövzusu Fitsceraldın ən yaxşı əsərlərində əvəzsiz yer tutur. Lakin o, müharibədə iştirak etməmişdi və ömrünün sonuna qədər buna çox təəssüf edirdi (Yazıçının həyatından məzəli bir əhvalat: Necə olursa, Fitsceralda döyüş meydanından götürülmüş, güllələrdən dəlik-deşik olmuş bir kaska (dəmir papaq) hədiyyə edirlər. O, bu “qəniməti” ömrü boyu saxlamış və üstündə asırmış.). Düzdür, əsgərlikdə olmuşdu. Lakin xidmət etdiyi hissə Avropaya getməyə hazırlaşdığı vaxt müharibə başa çatmışdı. Çətin ki, əsgərlik onun həyatında xoş iz buraxardı. 1936-cı ilə aid olan “Mən okeanı keçmədim” hekayəsi də bunu təsdiq edir. Amerikan ordusundakı qaydalara tənqidi münasibət bəsləsə də, Fitscerald üçün müharibə onun şəxsi həyatında əsas məsələ olmamışdı.

Fitsceraldın müşahidə və təcrübə dairəsi sonralar da nisbətən məhdud olmaqda qalır. Bu da öz növbəsində onun əsərlərinin sosial planının məhdudlaşmasına və ümumilikdə əsərlərin bədiliyinə öz təsirini göstərir.

Biz, müasir ədəbiyyatın ən yeni amerikan qısa ensiklopediyası (1963) ilə tam razı ola bilmirik. Ensiklopediyada Fitsceraldın demək olar ki, müstəsna olaraq pulun zənginlərə təsiri mövzusunu işləməsi fikrini qəbul etmək olmaz. Lakin qismən haqlı olduqlarını da rədd edə bilmirik. Bununla belə, Fitscerald hətta yalnız bu mövzu ilə məhdudlaşsaydı belə, onun sosial münaqişələri bir qədər fərqli araşdırmasına və təsnif etməsinə baxmayaraq bir çox şeyləri daha güclü işıqlandırmalı idi.

Yazıçı hər halda bəzi əsərlərində necə olsa da, parlaq nəticələr əldə edərək sanki özünü keçir.

Fitscerald yaradıcılığını bilavasitə müzakirə etməzdən əvvəl dövrünün hadisələrində birbaşa iştirak edən həmkarlarından fərqli olaraq, onun iştirak etmədiyini nəzərə almaq lazımdır.

Bununla belə, yaradıcılığının əvvəldən (1919) həyatının sonuna qədər mütərəqqi baxışlarını qoruyub saxlamışdır. Bu, qapalı təhsil ocağına gedən qızına yazdığı qısa məktubda özünü göstərir: “Sən orada mütəşəkkil qruplaşmış sol hərəkatın olduğunu görəcəksən. Mən heç də sənin siyasət barədə düşünməyini istəmirəm, ancaq bu hərəkatın əleyhinə çıxış etməyini də istəmirəm. Məni solçuluq hərəkatına rəğbət bəsləyən biri kimi tanıyırlar. Sən də elə mövqe tut ki, məni qürurlandırsın. Sən nasizimlə istənilən halda və ya “qırmızıların” təqib olunması ilə

hansı şəkildə olursa olsun, həmrəylik nümayiş etdirsən mən təhqir olunmuş olacam". (Tarix: 1938-ci il 19 sentyabr).

Çox güman ki, Fitsceraldın dörd tamamlanmış romanının hələ üçünün iyirminci illərin birinci yarısında qısa müddətdə nəşr edilməsində müəyyən qanunauyğunluqlar var idi: "Cənnətin bu tayı" – 1920, "Gözəlliklər və lənətlənmişlər" – 1922 və "Möhtəşəm Getsbi" ("Böyük Getsbi") – 1925-ci il. "Möhtəşəm Getsbi" və "Gecə zərifdir" romanları arasında səkkiz illik fasilə var. Yazıçı az bir müddətdən sonra "Sonuncu maqnat" əsərini yazmaq qərarına gəlir. Lakin yazıçı əsərin yalnız təxminən yarısını yaza bilir.

"Qeyri müəyyənliyin" təsadüfi olmasını təxmin etmək ola bilsin ki, sadəlövhlük olar. Fitsceraldın şəxsi və yaradıcılıq bioqrafiyasının müqayisəsi müəyyən nəticələr çıxarmağa tamamilə əsas verir. Heminqueyin fikrincə onun yaradıcılığının zirvəsinə yüksəlməyə bacardığını görmək heç də çətin deyil. Peşəkar ədəbi yaradıcılığının ilk illərində "Möhtəşəm Getsbi" kimi çox gözəl romanını yazır. Bu dövrdə nə içki asılılığı, nə yazıçı həyatına yaraşmayan həyat tərzi, nə sağlamlığında problem və əsası da şəxsi həyatının və yaradıcılığının iflasa uğramasının yazıçını yeyib-bitirən acı düşüncəsi Fitsceralda hələ təsir etməmişdi. Bütün bunlar 1936-cı ildə üç tövbə etiraf məqalələrində öz əksini tapmışdır. Sonralar bu məqalələr "İflas" ümumi başlığı altında ayrıca nəşr olunmuşdur.

"Möhtəşəm Getsbi" əsərindən sonra Fitsceraldın yaradıcılığında tənəzzül görünürdü. Onun yaradıcılığı 1925-ci ilə qədər yüksəlişə doğru gedirdi, lakin bu vaxtdan etibarən bir sıra "qığılcımların" olmasına baxmayaraq, istedad nəzərə çarpacaq dərəcədə sönməyə başlayır. Fitsceraldı iradəsinin olmamasında və ya xarakterinin zəifliyində istənilən qədər ittiham etmək olar. Lakin məsələnin obyektiv və subyektiv tərəflərini də hesaba almamaq və görməzdən gəlmək olmaz. İstedadlı yazıçının şəxsi həyatının və yaradıcılığının puç olması mövcud olduğu mədəniyyətinin ictimai şəraitin pozucu nəticəsi idi ki, dahi yazışı bütün bunların qurbanı olmuşdu.

Fitsceraldın romanları əslində necə idi, yaxşı cəhətləri və çatışmazlıqları nə idi.

Yazıçının iri həcmli əsərlərində olan səciyyəvi xüsusiyyətlər "Cənnətin bu tayı" əsərində artıq müəyyən edilmişdi. Romanın qəhrəmanı Emori Bleyn zəngin bir ailənin övladıdır. O, uşaq vaxtı Avropaya yol alan gəmidə xəstələnir. Anası nəhəng gəminin Nyu-Yorka geri dönməsi üçün gərək olan pulu rahatlıqla ödəyir. Yoluxucu xəstəliyə tutulan Emoriyə on dörd həkim, tibb bacıları və s. xidmət edir. Qəhrəmanın seçilməsini şərtləndirən amil – Fitscerald üçün adi sayılan pul mövzusunun seçilməsi yazıçıya satira və sosial qeyri-bərabərliyin kəskin tənqidi üçün böyük imkan yaratdı.

Lakin müəllif çox tezliklə Emoriyə istehza ilə yanaşmaqdan vaz keçir. Satirik əsərin qəhrəmanı hiss edilmədən əsl qəhrəmana çevrilir. Elə burada Fitsceraldın ikili münasibəti üzə çıxır. Zənginliyin ədalətsizliyini sahib olduqlarının (zənginlərin özü

üçün) fəlakət olduğunu görən yazıçı eyni zamanda da pulun yaratdığı imkanlara heyran olur.

İmtiyazlı məktəblərdə, sonralar isə Princeton universitetində Emorinin rastlaşdığı problemlərin süni şəkildə yüngülləşdirilməsi xarakter daşıyırdı. Bu problemlər mənafelərin gerçək toqquşmasının irəliləməsinə imkan vermir. Çünki, bunlar çox varlı və adi həyatdan çox uzaq olan insanın şəxsi qayğılarına çevrilir. Təsadüfi deyil ki, bu, romanın universitetə həsr olunmuş hissəsində Emorinin həndəsə imtahanından kəsildiyi epizodda üzə çıxır. Nəticədə ona futbol komandasına daxil olmağa icazə vermirlər.

Fitscerald, görünür, Emorinin məhz zənginliyi üzündən yalançı vəziyyətə düşdüyünü hiss edir. Əsərin qəhrəmanı hələ tələbə ikən yoxsullaşır, az sonra isə bütün imkanlarından olur. Bu, yazıçıya Emorinin yeni şəraitlə, xarici mühitlə real əlaqəsini göstərmək imkanı verir. Lakin elə bu da Fitsceraldın – müharibəni ancaq mücərrəd şəkildə keçmiş gənclərin daxili aləmini dəyərləndirməsinə təsir edir. Sadəcə desək, sonra dünya fəlakətlərini və ardınca bu fəlakətlərdən ayrılmanı göstərmək üçün özünün bilik və təcrübəsinin kifayət etməməsi idi. Emori müharibədə iştirak edir, lakin romanda bu olduqca sırf təsviri xarakter daşıyır. Buna görə də, müəllifin və oxucunun istədiyi kimi real görünmür. Əslində bu halda təsvirçilik bədii dissonans yaratmasaydı onun əleyhinə irad tutmamaq olardı: romanda müharibədən əvvəlki dövrdə imkanlı gənclərin məişəti və əhvali-ruhiyyəsi tamamilə səhih və inandırıcı şəkildə verilmişdir. Bunu hərbi səhnələr haqqında demək olmaz. Emori xarakterinin məntiqi inkişafı, kitabda süjetin məntiqi inkişafı belə pozulur. Romanda yazıçının şəxsi təcrübəsinin kifayətsizliyi üzündən yeri doldurmayacaq boşluq yaranır. Romanın "universistetdən sonrakı" hissəsinin nisbətən zəif olması buradan qaynaqlanır. Üstəlik də romanda aksentlərin təbii axarı ilə tənzimlənməsi bir qədər uşaqcasına görünür, bu da son səhnələrdə xüsusilə hiss edilir. Bundan əlavə kitabda aksentlərin təbii axarı ilə yerbəyer edilməsi, bütövlükdə, xüsusilə son səhnələrdə hiss olunan bir qədər uşaqcasına səslənməsidir.

Emorinin Rozalində olan uğursuz sevgisi oxucuya çətin ki, əsl faciə təsiri bağışlasın. Romanın lirik və ictimai planı kifayət qədər uzlaşmır. Kompozisiyalarda boşluqlar meydana çıxır. Emori özünün "Müharibə sonrası" fikirlərini çox zəngin bir insanın qarşısında söyləyir, elə bir insan ki, hazırkı halda onu münasib auditoriya hesab etmək olmaz.

Yeri gəlmişkən müsahibinin etirazına Emorinin cavabı təsadüfi deyil: "Sizinlə söhbətə qədər bu barədə ciddi düşünməmişdim. Özüm də heç dediklərimin yarısına belə əmin deyildim". Axı, söhbət ciddi sosial problemlər barəsində idi. Emori hər şeydən əvvəl özünün "sosialist" ideyalarını "təcrübəsi" əsasında qurur. Bunu imtahandan kəsildiyi üçün futbol klubunda çıxış etmək hüququndan məhrum edilməsi təsdiq edir.Emorinin mister Ferrenbinin cah-calalı limuzinində ilk dəfə formalaşdırdığı proqram necə idi? Birincisi, bütün uşaqlar əvvəldən bərabər

*Azərbaycan Milli Elmlər Akademiyası M. Füzuli adına Əlyazmalar İnstitutu,* *ISSN 2224-9257*
*Filologiya məsələləri № 5, 2026*
*Səh. 427-435*

imkanlara malik olmalıdırlar ki, pul axınları intellektual səviyyələrə görə əlçatmaz olan sahələrə çökməsin. O sonra sənayenin milliləşdirilməsini və kapitalın məhdudlaşdırılmasını təklif edir. Kapitalın məhdudlaşdırılması yaxşı insanları varlanmağa deyil, şərəfli olmağa məcbur edəcəkdir. Emori "üsullarının" təsir gücünə əmin olsa da, bütün bunların həyata necə keçiriləcəyi barədə düşünmür.

Emorinin özünün belə öz sosializminə inanmadığını açıq-aydın deyən mister Ferrenbi ilə razılaşmamaq mümkün deyil.

Qəhrəmanın zəif mövqeyini Fitscerald kimi ciddi yazıçının görməməsi mümkün deyildi. Görünür, məhz buna görə Emorinin gəldiyi son nəticə ilə yeri gəlmişkən artıq varlı mister Ferrenbiyə deyil, havaya müraciəti tamamilə fərqli səslənir: "Mən özümü tanıyıram deyə hayqırır, bu hər şey deyil". Təəssüf ki, hətta bu təsdiqini özü də, çox cəsarətli fikir idi.

Müharibəni keçən gənclərin müəyyən qrupunun həyatını qələmə alan Fitscerald "İtirilmişlər nəslin" səciyyəvi problemlərinə toxunmaya bilməzdi. Lakin yazıçı bizi tez-tez real həyatdan ya uzaqlaşdırır, yaxud da bu həyata ötəri yanaşır. "İtirilmişlərin" şəxsiyyətlərinin iflası dünya ictimai sarsıntısını əks etdirirdi. Fitscerald ilk romanında isə bütün vəziyyətlərdə və bütün qeydlərində demək olar ki, istisnasız olaraq qəhrəmanın şəxsi həyatlarını əks etdirirdi.

"Gözəlliklər və lənətlənmişlər" Fitsceraldın sonrakı romanında ictimai toqquşmanın mahiyyətinə görə deyil, əlahiddə baxılması, üstəlik də həddindən artıq əhəmiyyət verilməsi özünü çox göstərir. Romanın qəhrəmanı həyatı milyonluq mirası gözləməklə keçən gənc Entoni Petç gözəl Floriya ilə evlənir və əsər boyu avaralıq edir.

Elə təkcə çoxlu pulun intizarı gənc cütlüyün həyatını məhv edir. Bütün problemlərin və faciələrin onların varlığına biganə olduğu dünyada onların görəcəyi heç nə yoxdur, əslində romandan kənarda qalır. Zənginlik intizarı ilə həyatları puç olan qəhrəmanların eqoizmi artır. Amerika ədəbiyyatşünaslığında dolaşan "Fitsceraldın əsas mövzusu pul və pulun elə öz sahiblərinə təsiridir" fikri xeyli dərəcədə məhz yazıçının ikinci romanında təsdiqini tapır.

"Gözəlliklər və lənətlənmişlər" – kitabın adı müəllifin qəhrəmanlarına olan münasibətini təmsil edir. Göründüyü kimi romanda bu münasibət yenə də ikili yanaşmanı göstərir. Fitsceralda görə zənginlər mütləq gözəl olmalıdırlar. Yazışı onların eqoistliklərini, tufeyliliklərini, mənasız həyat tərzlərini, mənəvi düşkünlülərini nə qədər ittiham etsə də, onlara heyranlığı davam edir.

Çox böyük kapitalla bağlı mənəvi eybəcərliyin ardıcıl olaraq ifşasına etiraz etmək çətin olardı.

Fitsceraldın da bədbəxtliyi elə ardıcıl olmamasında idi. Roman açıq-aydın satirik üslubda başlayır, ardınca satiranı ancaq ayrı-ayrı epizodlarda və səhnələrdə görürük, müəllifin personajlara münasibəti bəzən onların layiq olmadıqları dərəcədə ciddiləşir. Hətta elə təəssürat yarana bilər ki, iyirminci illərin əsas social problemi

Fitscerald üçün son dərəcə şəxsi planda aşkara çıxardığı məhz zənginlərin mənəvi həyat problemi idi. Buna görə də romanda rastlaşdığımız çox yaxşı psixoloji təhlil bəzən sadəcə olaraq qıcıq yaradır.

Əsərin süni şəkildə yığcamlaşdırılması davamın qarışıq olacağından xəbər verir. Romanı oxuduqca dərhal sual vermək istəyirsən: "Müəllifin yanlış olaraq şəxsiyyət hesab etdiyi zəngin yaraşıqlı oğlanın qalmaqalından və təəsüratlarından mənə nə?"

Fitscerald sözün əsl mənasında Entoninin ətrafında şan-şöhrət yaradır. Romanın süjet xəttinin əsası Entoninin böyük həvəslə gözlədiyi mirasdan məhrum edilməsi ilə bağlıdır. Qəhrəmanın puritan babası təsadüfən nəvəsinin eyş-işrət məclisinin şahidi olur. Milyonlarını xeyriyyəçilik işlərinə vəsiyyət edir. Entoni vəsiyyətin ləğv olunması üşün iddia qaldırır. Məhkəmənin qərarını gözləyərkən mənəviyyatı daha da pozulur, hətta içki düşkünlüyünün "Белая горячка" (alkoqol psixozu) adlanan krizinə düşür. Lakin qəhrəmanın açıq-aşkar bivecliyini, yararsızlığını görsə də, müəllif mirası qazanmaq üçün Entoninin uzun və israrlı inadkarlığından sanki həzz alır. Romanın son səhnəsində məhkəmə prosesini qazanan Entoninin möhtəşəm gəmidə İtaliyaya səfəri ilə müəllifin Entoniyə olan ikili münasibəti bir daha üzə çıxır. Gəminin birinci sinif göyərtəsində oturmuş sağlamlığını və demək olar ki, insan sifətini itirən Entoni eyni zamanda həm yazıq, həm də əzəmətli görünürdü.

Bütün bunlarla yanaşı romanın müsbət cəhətləri də yox deyildi. Pulun pozucu təsiri geniş verilməsə də, əsaslı verilmişdir. Bundan əlavə müəllif bəzi əhəmiyyətli mövzuları əlavə sujetlərdə vermişdir. Burada hər şeydən əvvəl yazıçının pul aləmindəki taleyi mövzusu diqqəti cəlb edir.

Qloriyanın dayısı (və ya əmisi) Riçard Karamel və Entonin dostu -Entonidən fərqli olaraq vəziyyətini özü düzəltməli idi. Biz onunla bütün planların və ümidlərin əsası olan birinci roman üzərində fədakarcasına çalışdığı zaman qarşılaşırıq. Riçardın gərgin əməyi, yaradıcılığa son dərəci ciddi münasibəti və müəyyən ədəbi qabiliyyəti öz bəhrəsini verir. Kitabı çox böyük uğur, müəllif isə həsrətini çəkdiyi təminat gözləyir. Gənc yazıçını da elə bu da məhv edir. O, özü də hiss etmədən məqsədinin yaradıcılıq deyil, pul olan bir peşəkara çevrilir. Təəssüf ki, Karamel obrazının əsil xarakteri mövzunun doğrudan da hər tərəfli işlənməsinə yol vermir.

Fitsceraldın ilk iki romanı onun yazıçı kamilliyindən çox, gənc müəllifdən gözlənilən fitri istedadını təsdiqləyirdi. İlk iki romanından fərqli olaraq "Möhtəşəm Getsbi" – Fitscerald yaradıcılığının ən yaxşı tərəflərini daha ətraflı və açıq-aşkar işıqlandıran əsər idi.

Roman dövri mətbuatda ümumilikdə müsbət rəylər alırdı, lakin yazıçının təəsüf etdiyi kimi, geniş yayılmırdı. Doğrudur, romanı tərifləyən tənqidin özü də onun dərin təhlilə əsaslanan lazımi dəyərini dərhal verməmişdi. Xüsusilə də

*Azərbaycan Milli Elmlər Akademiyası M. Füzuli adına Əlyazmalar İnstitutu,* *ISSN 2224-9257*
*Filologiya məsələləri № 5, 2026*
*Səh. 427-435*

nəşriyyatın tam əsası var idi ki, tənqidi romanın satirik istiqamətini dərhal görmədiklərinə irad bildirsin.

Bu halda tənqidin yan keçməsinin ətraflı izahı verilməli idi. Artıq deyildiyi kimi, iyirminci illlərin ortalarında amerikan ədəbiyyatının mərkəzində ideyası açıq görünən iri sosial romanlar dururdu. Bununla belə bu ideyalar heç də həmişə "səthi" görünmürdü. Fitsceraldın romanında lirik ton üstünlük təşkil edir, iştirakçılar məhdud saydadır, hadisələrin cərəyan etdiyi məkan çox dardır, hadisələr isə ilk baxışda tamamilə kamera xarakteri (zahiri görüntüyə işləmək) təəssüratını yaradır. Romanın əsasən əxlaqi planda verilən problemləri ilk baxışda nəzərə çarpmasa da, əslində çox böyük əhəmiyyət kəsb edirdi.

Fitscerald bir-iki ictimai qrupun sözün əsl mənasında seçilmiş nümayəndələrini göstərərək, sanki onların təkcə şəxsi münasibətlərini yazırdı, əslində amerikan cəmiyyətinin keçirdiyi mənəvi (əxlaqi) böhranı xarakterizə edirdi.
Bir neçə qəhrəmanın taleyi, onların şəxsi faciələri haqqında olan roman cəmiyyətin hədsiz ictimai uğursuzluğunu, faciəvi hal alan nizamsızlığını, hədsiz pozğunluğunu ifşa edən romandır. Yazıçı əsərin qəhrəmanlarının taleyinə düşən şəxsi sarsıntıların, çox böyük ictimai təlatümlərin olacağını təxmin etməyi zəruri saysa da kitabda bu barədə bir başa heç nə yazılmır.

Son illərdə müasir amerikan ədəbiyyatında dünyanı bədii cəhətdən görmək meyli xüsusilə inkişaf etmişdir. Fitscerald yaradıcılığının təsiri altında ABŞ-ın bir çox yazıçıları xeyli dərəcədə yaradıcılıq uğurları qazanaraq, onun açdığı yolla davam edirlər. Bu sahədə Filippa Rota yaradıcılığını daha uğurlu hesab edə bilərik.
"Səhlənkarlıq" (1961) əsəri gənc müəllifi ABŞ-ın müasir məşhur yazıçıları sırasına qatmışdır. Bu böyük kitabı oxuyarkən, söhbətin yalnız şəxsi problemlərdən getmədiyini dərhal görmək mümkün deyil, yalnız sonuncu səhifədə müəllif özünün problemlərinin ictimai xarakter daşıdığını açıq-aşkar etiraf edir.

Firscerald yaradıcılığı çox ziddiyyətlidir. Yaradıcılığının ilk illərində ziddiyyətli meylləri görünürdü. Mahiyyət etibarı ilə realist tənqidçi olan yazıçı bu və ya başqa dərəcədə tənqidinin dəyərini azaldır, ictimai problemlərdən uzaqlaşır, kəskin səhnələri ört-basdır edir.

Müəllifin dünya görüşündəki dəyişikliklər, hər hansı bir prinsipial baxışlarındakı köklü dəyişikliklər barədə danışmağa əsas vermir.

Fitsceraldın taleyini Hemenquey "Həmişə səninlə olan bayram" yazısında çox gözəl xarakterizə etmişdir. "Onun istedadı kəpənəyin qanadlarını bəzəyən zərrəciklər qədər təbii idi. Bir zamanlar o, zərrəciklərin kəpənəkdən silindiyini və yoxa çıxdığını görmürdü…

Sonradan başa düşdü ki, onun qanadları zədələnib, uça bilmir. Çünki, uçmağa olan sevgisi də yoxa çıxıb. Yaddaşında isə nə vaxtsa bunun çox asan olduğu qalmışdı.

**Ədəbiyyat siyahısı**

1. А.Зверев. Из писем американского писателя Фрэнсиса Скотта Фицджеральда (1920–1940). Вопросы литературы №2, стр.158-191
2. А.Старцев. Горькая судба Фицджеральда (об американских прозаиках) – Иностранная литература 1965, №2, стр.172-180
3. А.Мендельсон. Скотт Фицджеральд. "Второе дыхание". Вопросы литературы №3, стр.102-125

**Nushaba Sadikhli**
Associate Professor
Baku State University
Department of World Literature
nushaba-sadikhli@mail.ru

**Francis Scott Fitzgerald's "Broken Wings"**

**Summary**

This article examines the literary work of the American writer F. Scott Fitzgerald, with particular emphasis on his novels and his role in the development of American literature.

The prominent American author F. Scott Fitzgerald was born on September 24, 1896, into a family of modest means. From an early age, especially during his college years, Fitzgerald was deeply attracted to the opportunities afforded by wealth, acutely aware of the relative poverty of his own family.

Three of Fitzgerald's novels were published within a relatively short period during the first half of the 1920s: "This Side of Paradise" (1920), "The Beautiful and Damned" (1922), and "The Great Gatsby" (1925). Eight years later, Fitzgerald published "Tender Is the Night", and subsequently managed to complete only half of his final work, "The Last Tycoon".

Fitzgerald's works are marked by profound internal contradictions. Dual tendencies are already evident in the early stage of his literary career. Although he was fundamentally a realist and a critic of contemporary American life, for various reasons he at times diminished the force of his social critique, distanced himself from pressing societal issues, and softened the most intense aspects of his narrative.

Keywords

F. Scott Fitzgerald, novel, The Great Gatsby, This Side of Paradise, The Beautiful and Damned, Lost Generation, war, imagery.

**Keywords:** F. Scott Fitzgerald, novel, The Great Gatsby, This Side of Paradise, The Beautiful and Damned, Lost Generation, war, imagery.

*Azərbaycan Milli Elmlər Akademiyası M. Füzuli adına Əlyazmalar İnstitutu,* *ISSN 2224-9257*
*Filologiya məsələləri № 5, 2026*
*Səh. 427-435*

**Нушаба Садыхлы**
доцент
Бакинский государственный университет
Кафедра мировой литературы
nushaba-sadikhli@mail.ru

## «Подрезанные крылья» Фрэнсиса Скотта Фицджеральда
## РЕЗЮМЕ

В статье рассматривается творчество американского писателя Фрэнсиса Скотта Фицджеральда, в особенности его романы, а также его роль в истории литературы США.

Выдающийся американский писатель Фрэнсис Скотт Фицджеральд родился 24 сентября 1896 года в семье со скромным достатком.
Привлекательность возможностей, которые открывают большие деньги, рано захватила молодого Фицджеральда, особенно в студенческие годы, когда он остро осознавал относительную бедность своей семьи.

Три романа Фицджеральда были опубликованы в первой половине 1920-х годов в сравнительно короткий срок: в 1920 году — «По эту сторону рая», в 1922 году — «Прекрасные и проклятые», в 1925 году — «Великий Гэтсби». Спустя восемь лет был опубликован роман «Ночь нежна», а позднее писатель успел создать лишь половину своего последнего произведения — «Последний магнат».

Творчество Фицджеральда отличается внутренней противоречивостью. Уже в ранний период его литературной деятельности проявляются двойственные тенденции. Будучи по своей сути реалистическим критиком американской действительности, он под влиянием различных обстоятельств нередко ослабляет остроту социальной критики, отходит от общественной проблематики и сглаживает наиболее напряжённые моменты повествования.

**Ключевые слова:** Фрэнсис Скотт Фицджеральд, роман, «Великий Гэтсби», «По эту сторону рая», «Прекрасные и проклятые», потерянное поколение, война, изобразительность.

**Rəyçi: professor Cəlil Nağıyev**